2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 10 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 26 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilən seçkilərdə 75 saylı Lənkəran – Masallı seçki dairəsindən Türkoba bələdiyyəsi üzrə qeydə alınmış namizəd Hüseynov Qaraxan Mirzə oğlu və digər qeydə alınmış namizəd Ağayev Vəkil Mürşüd oğlunun həmin seçki dairəsinin 29, 30 və 31 saylı seçki məntəqələrində baş verən qanun pozuntularına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 10 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Seçki Məcəlləsinin 112.10-cu maddəsinə əsasən seçkilərin gedişi zamanı səsvermə gününə 30 gün qalmışadək və səsvermə günündən növbəti gündən sonra seçki komissiyasına daxil olan hər bir şikayət üzrə qərar 3 gün müddətində qəbul edilir və şikayətçiyə çatdırılır.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən q ə r a r a a l ı r :

1. 75 saylı Lənkəran-Masallı seçki dairəsi üzrə Türkoba bələdiyyəsinə qeydə alınmış namizədlər Hüseynov Qaraxan Mirzə oğlu və Ağayev Vəkil Mürşüd oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 10 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov